# Dünyanın ilk qadın yazarları

*III yazı*

## İngiltərənin “Misilsiz Astreya”sı



Bərpa dövrü ədəbiyyatının ən məşhur beş yazarından biri, İngiltərənin ilk peşəkar qadın yazıçısı statusuna sahib olan Afra Ben ölkəsinin ədəbiyyat tarixinə möhürünü vurmuş müəlliflərdəndir. Onun sirli, qalmaqallı həyatı haqqında faktlar olduqca azlıq təşkil edir və bioqrafiyası daha çox fərziyyələr və təxminlər əsasında yazılmışdır. Afra Ben 1640-cı ildə Kenterberi ərazisində B.Consonun ailəsində dünyaya göz açıb. Uşaqlığı ilə bağlı məlumatlar yoxdur. 23 yaşı olanda atasının işi gərəyi Surinamda olduğu qeyd edilir. Qayıtdıqdan sonra orada tanış olduğu Yoxan Ben adlı holland, yaxud alman bir tacirlə ailə qurur, bu birgəlik çox çəkmir. Mister Ben haqqında heç bir məlumat yoxdur, təxmin olunur ki, bu evlilik cəmiyyət üçün göstəriş xarakteri daşımışdır. Əsərlərin birində Afra özü də yazırdı ki, sevgi və hörmət üzərində qurulmayan, yalnız göstəriş üçün qurulan ailələr saxtakarlıqdan başqa bir şey deyil.

1666-cı ildən etibarən sarayda müəyyən mövqeyə sahib olan Afra Ben dövrün hörmətli yazıçıları, mütəfəkkirləri ilə ünsiyyət imkanı qazanır və bu da onun yaradıcılığına müsbət təsir edir. İngiltərə və Hollandiya arasında müharibə başlananda o, Antverpendə kralın şəxsi casusu kimi fəaliyyət göstərir. Kod adı Astreya olan Afra sonralar ilk əsərlərində bu imzadan istifadə etmişdir. Onun vəzifəsi Uilyam Skotun etimadını qazanıb, sevgilisi olub, sonra məlumatları əldə edərək krala çatdırmaq idi. Lakin kral xəsislik edib vəd etdiyi pulu ödəmir və Afra böyük məbləğdə borc üzündən Hollandiyada bir müddət həbsdə yatır. 1669-cu ildə naməlum şəxs onun borcunu ödəyir və qadın azad olunur.

Həbsdən qayıdandan sonra o, kral kompaniyasında işləməyə başlayır; ilk pyesi 1670-ci il sentyabrın 20-də səhnəyə qoyulan “Məcburi nikah, yaxud qısqanc nişanlı” əsəri idi. Əlbəttə, XVII əsr İngiltərəsində xeyli savadlı və mütaliəli, o cümlədən, bədii yaradıcılıqla məşğul olan xanımlar vardı. Lakin onların yazdıqları yalnız dar çevrədə tanınır, çap olunmur və daha çox gündəliklər şəklində qələmə alınırdı. Kanadalı tarixçi Sara Mendelson Bərpa dövrü qadınlarına aid 23 gündəlik araşdırmış və belə nəticəyə gəlmişdir ki, onlar əsasən dini ədəbiyyat oxuyur və yazdıqlarında mütaliələrinin böyük təsiri olurdu. Afra Ben bu barədə də dövrünün xanımlarından seçilirdi: belə ki, uşaq vaxtı katolik tərbiyəsi almasına və özünün qeyd etdiyinə görə, hətta monastıra hazırlanmasına baxmayaraq, onun dinə münasibəti birmənalı deyildi.

Bir neçə pyes təcrübəsindən sonra “Hollandiyalı sevgili” tamaşası fiaskoya uğrayır, ruhdan düşən müəllif dramaturgiyadan uzaqlaşır. Lakin uğursuzluqla barışmayan Afra Ben 3 il sonra yenidən bu işə qayıdarkən bir-birinin ardınca səhnəyə qoyulan əsərləri ona xeyli uğur gətirir: “Şəhərli modabaz”, “Bədgüman kurtizanlar”, “Saxta qraf”, “Yumrubaşlar”, “Şəhərli varis” kimi onlarla pyesin ardınca “Yolçu” komediyası müəllifin triumfu olur. Russo, Defo, Riçardson kimi müəlliflərin və fransız maarifçilərinin sələfi adlandırılan Afra siyasi baxışlarına görə xeyli mühafizəkar idi və inqilab tərəfdarı deyildi. Onun geniş mütaliəsi vardı və pyeslərində oxuduğu əsərlərdən ifadələr işlətməyi sevirdi. “Ay imperatoru” pyesi isə onun 17 illik teatr karyerasının layiqli yekunu hesab olunur.



Nəsr əsərləri dövr üçün xarakterik olmasa da, Afra Ben özünü həm də bu sahədə sınadı və Bərpa dövrünün ən yaxşı romançısı olaraq tarixdə qaldı. Onun 7 cilddə toplanmış bədii irsi əhatəli və janr baxımından xeyli rəngarəngdir: pyeslərlə yanaşı, şeir, esse, hekayə və romanlar yazır, tərcümələr edirdi. Afra Benin dramaturgiyadan nəsrə keçməsinin dəqiq tarixi bəlli deyil, amma belə hesab olunur ki, ilk romanı 1683-cü ildə yazılmış “Kral Bantamın saray xatirələri”dir. Lakin “Zadəgan və bacısının sevgi məktubları” adlı epistolyar əsərini ilk nəsr təcrübəsi hesab edən ədəbiyyat tarixçiləri də vardır. Əsərin əsasını siyasi motivlər təşkil etsə də, Afra burada qadının həyatı ilə bağlı o dövr üçün xeyli cürətli hesab olunan fikirlərlə çıxış edir. Bu dördhissəli əsər ingilis ədəbiyyatında vahid süjet xətti və bir neçə obrazın iştirakı ilə yazılmış ilk epistolyar roman hesab edilir. Dramaturgiyada daha çox sələflərini və müasirlərini təqlid edən Afra nəsrdə daha yaradıcı, yenilikçi idi.

Onun ən yaxşı romanı 1688-ci ildə yazdığı “Orunoko” hesab olunur. Surinamda zənci kölələrlə ünsiyyətin təsirilə yazdığı bu əsər müəyyən qədər real hadisələrə əsaslanmışdır və Orunoko şəxsən tanıdığı kölənin prototipidir. Bəzən Afranı bərabərhüquqlu cəmiyyət tərəfdarı kimi təqdim edirlər, lakin “Orunoko” romanından göründüyü kimi, o, köləliyin əleyhinə olmamış, eyni zamanda, kral hakimiyyətinə böyük rəğbət bəsləmişdir.

Afra Ben həmçinin şeirlər yazmış, burada fərdi hisslərini açıq-saçıq şəkildə ifadə etmiş, reputasiyasına xələl gətirən də daha çox poeziyası və haqqında gəzən söz-söhbətlər olmuşdur. O, yaradıcılığında epatajın yer almasını tənqid edənlərə cavab olaraq, “Xoşbəxt təsadüf” əsərinin ön sözündə bu üsuldan istifadə edən müasirləri və sələflərinin siyahısını verərək özünə haqq qazandırır. O yazır ki, bütün dövrlərdə kişi müəlliflərin açıq-saçıq əsərlərinə normal yanaşılsa da, nədənsə qadın yaradıcılığı üçün bu, məqbul hesab olunmur.

Heç nəyə baxmayaraq, Britaniya ədəbiyyatının maskulin çevrəsində Afra Ben imzası özünəməxsus yer tutmağı bacarır. Sağlığında yalnız öz ölkəsində deyil, həm də Fransa və Almaniyada məşhur olan yazarın yaradıcı qabiliyyətinə heyrət etsələr də, XIX əsrdə onun yaradıcılığı əxlaqsızlıq nümunələri kimi qadağan edilir, qalmaqal və sirlər dolu həyat tərzi sürməsi səbəbilə adını unutdurmağa çalışırlar. Yalnız XX əsrdə Afra Ben imzası yenidən anılmağa başlamışdır.

Yazar Monteqyu Sammers 1915-ci ildə onun irsini “Afra Benin əsərləri” adı ilə tərtib edir. Yazıçı Vita Sekvill-Uest “Misilsiz Astreya” adlı tərcümeyihalını yazır. Virciniya Vulf “Özünə aid bir otaq” adlı “Qadın və ədəbiyyat” mövzusunda məruzə-essesində İngiltərədə qadın yazarların tarixinə nəzər salarkən sələfinin öz yaradıcılığı ilə qazanc əldə etməsini xüsusi olaraq təqdir edir: “Afra Ben sübut etdi ki, qadın ona aid edilən bəzi uydurma xüsusiyyətləri qurban verərək, öz qələmi ilə gəlir əldə edə bilər və tədricən qadınlar “ağılsızlıqdan”, yaxud “özlərini itirdiklərindən” deyil, tamamilə praktik düşüncələrdən qələmə sarılmağa başladılar.”

V.Vulf Afra Benlə yanaşı, XVII əsrdə tərcümələr edərək, şeirlər, esse və romanlar yazaraq gəlir əldə edən digər qadınların ali deyil, orta təbəqəyə malik olduğunu xüsusi olaraq vurğulayır. Qeyd edir ki, həmin dövrdə zadəgan qadınların bekarçılıqdan məşğuliyyət təəssüratı yaradan əsərləri praktik əhəmiyyət daşıdığı zaman daha böyük dəyər kəsb edir. Bu baxımdan V.Vulf Afranı əhəmiyyətli bir başlanğıcın müəllifi kimi görür: “Qadınlar onun... Vestminster abbatlığında yerləşən qəbrini yağış çiçəyinə qərq etməlidirlər, çünki o, qadınlar üçün yüksək səslə danışmaq hüququnu əldə etmişdir.”

Xüsusilə, Virciniya Vulfun sələfi haqqında səsləndirdiyi bu yüksək fikirlərdən sonra Afra Benin yaradıcılığına böyük maraq oyanmış, irsi dünyanın müxtəlif dillərinə tərcümə olunmuş, haqqında xeyli elmi araşdırmalar yazılmışdır.

Afra Ben 1689-cu ildə vəfat etmişdir. Yuxarıdakı sitatda da qeyd olunduğu kimi, onun qəbri kral ailəsi və yaxın çevrəsinin dəfn olunduğu Vestminster abbatlığında yerləşir. Əsərlərində ölümü sadəcə əbədi yuxu kimi dəyərləndirən yazıçının qəbri üstündə “Bu, insan zəkasının ölümə mane ola bilməməsinin əyani sübutudur” sözləri yazılıb.



Mətanət Vahid